*Əvəz Qurbanlı*

***Xocalı baharı***

Zaman donubdu bu yerlərdə, vaxt ötüb keçməz,
Saatlar ömrü dalınca yedəkləməz bu bahar!
Yaşantı səsləri duymaz təbiətin qulağı,
Tumurcuq açmaz, ağaclar çiçəkləməz bu bahar...

Bu kənddə evlər adamsız keçindilər neçə il,
Soyuqda evsiz-eşiksiz qalan adamlarıtək
Qapandı pəncərəsi xəstələnmiş arzuların,
Ətirli mehlə otaqlar küləkləməz bu bahar.

İtirdi odlu ürəklər Günəş sıcaklığını,
Soyuq sabahları bəhs eyləməz məhəbbətdən.
Yubandı qaldı sabahlar ötən baharlarda,
Sevənlər ondakı ürəklə bəkləməz bu bahar!

Cahan baxıb susar! Ancaq silahlar odlaniyor
Qar üstə körpələrin güllələnmiş izlərinə!
Can üstə bir qarının son sədası "yavrum" olar,
Gözündə ümidlər iməkləməz bu bahar!

Zaman donubdu bu yerlərdə, vaxt ötüb keçməz,
Saatlar ömrü dalınca yedəkləməz bu bahar!
Yaşantı səsləri duymaz təbiətin qulağı,
Tumurcuq açmaz, ağaclar çiçəkləməz bu bahar...

...Kimin batırsa əli bir günahsızın qanına,
Nə cür hesab verəcək, anlamır,  Qiyamətdə?
Eheyy! Bu gün harada türk ölür – günahsız ölür!
Əzəldə türk qanı yoğruldu çün ədalətdən!

Zaman durar – harada türk qanı tökülsə əgər,
Nədən cahanda yaşam, bəs, sürüb-sürüb gediyor?

İçimdə “sur” səsitək bir nida qopur: “Əcəba,
Zaman mühərriki türkün qanıyla dövr ediyor”?!

***Qurbanlı Ə. Xocalı baharı : şeir // Azərbaycan. – 2016. - № 2. – S. 159-161.***